# Azərbaycanda ölkə iqtisadiyyatı qarşısında duran çağırışlara həssaslıqla yanaşılır

***❐ Son illər ərzində ölkəmizdə yaradılan siyasi və makroiqtisadi sabitlik Azərbaycanın regiondakı xüsusi rolunu fərqləndirir. Bu baxımdan hazırda Azərbaycanın hər bir vətəndaşının öz potensialını reallaşdırması üçün əlverişli şərait yaradılır. Bu gün yalnız iş yeri tapmaq deyil, eləcə də iş yeri yaratmağa çalışan hər bir şəxsə dövlət tərəfindən bir sıra tədbirlər vasitəsilə müvafiq qanunvericiliyin tətbiqi yolu ilə dəstək verilir.***

Həyata keçirilən uğurlu islahatlar nəticəsində Azərbaycan iqtisadiyyatı 2014-cü ildən başlanan və bir neçə il davam edən qlobal maliyyə-iqtisadi böhrandan itkilərsiz çıxdığı kimi, hazırda koronavirusun yaratdığı problemləri də tədricən möhkəmlənən iqtisadi-maliyyə potensialı hesabına aradan qaldırmağa, iqtisadi sabitliyi qoruyub-saxlamağa qadirdir.

Dünyada koronavirus infeksiyasının yayılmasının qlobal iqtisadiyyata mənfi təsirlərinin artdığı şəraitdə əsas neft ixracatçıları arasında hasilatın həcmi barədə fikir ayrılığının yaranması dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşmasına gətirib çıxarıb.

Azərbaycan hökuməti tərəfindən dünya iqtisadiyyatında gedən proseslər diqqət mərkəzində saxlanılaraq, baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkə iqtisadiyyatına mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər planı işlənilib. Belə ki, neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanıb. Bu ssenarilərə uyğun olaraq, zərurət yarandığı hallarda müvafiq sabitləşdirici tədbirlər paketinin reallaşdırılacağı nəzərdə tutulub.

Hazırda dünyada baş verən neqativ iqtisadi meyillər fonunda belə Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirir, iqtisadiyyat inkişaf yolu ilə uğurla irəliləyir, ölkənin maliyyə imkanlarının daha da genişlənməsi üçün önəmli tədbirlər reallaşdırılır.

Ekspertlərin fikrincə, bu gün ölkə iqtisadiyyatı 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, cari il də müsbət inkişaf dinamikası davam edir.

İqtisadi və sosial sahələrin inkişafı istiqamətində reallaşdırılan tədbirlərin miqyasını aydın təsəvvür etmək məqsədilə bəzi statistik göstəriciləri də diqqətə çatdırmaq istərdik. Belə ki, cari ilin yanvar-iyul aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 7588,3 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz çox vəsait yönəldilib. Ümumi sərmayənin 5104,7 milyon manatı və ya 67,3 faizi məhsul istehsalı sahələrinin, 1745,9 milyon manatı (23 faizi) xidmət sahələrinin, 737,7 milyon manatı (9,7 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb. İnvestisiyanın 40,3 faizi dövlət, 59,7 faizi qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulub.

Pandemiya şəraitində büdcə daxilolmaları da artıb. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan vergi-gömrük islahatları ilə bağlı olub. Şübhəsiz ki, burada kölgə iqtisadiyyatı ilə mübarizənin, habelə iqtisadiyyatın leqallaşması prosesinin diqqətdə saxlanılması da önəmli rol oynayıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2020-ci ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,1 faiz artaraq 12 milyard 75,9 milyon manata, xərcləri isə 7,1 faiz artaraq 11 milyard 730,8 milyon manata çatıb. Büdcənin icrasında yaranmış 345,1 milyon manatlıq profisit ümumi daxili məhsulun 1 faizinə bərabər olub. Daxilolmaların 20,75 faizi əlavə dəyər vergisi, 12,42 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 4,67 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 4,65 faizi fiziki şəxslərin gəlir vergisi, 3,48 faizi aksizlər, 1,39 faizi sadələşdirilmiş vergi, 1,85 faizi vergilərin digər növləri, 50,79 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilib.

Hazırda Azərbaycanın strateji valyuta ehtiyatları 51,7 milyard ABŞ dolları təşkil edir. Strateji valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə 1,2 faiz artıb.

Azərbaycan Mərkəzi Bankının sərəncamında olan rəsmi valyuta ehtiyatlarının həcmi isə avqustun 1-nə 6 milyard 468,7 milyon ABŞ dolları olub. Bu göstərici ötən ayın eyni dövrü ilə müqayisədə 32,4 milyon dollar çoxdur. Dövlət Neft Fondunun cari ilin ilk rübünün sonuna 41 milyard 349,5 milyon dollara bərabər olan aktivləri iyun ayının sonuna 1 milyard 873,8 milyon dollar artaraq 43 milyard 223,3 milyon dollara bərabər olub.

Bütün bunlar Azərbaycanın iqtisadi gücünün, hətta pandemiya dövründə belə artmasının ifadəsidir. Dövlətimizin başçısının bildirdiyi kimi, bu da dövlətimizin istənilən böhrana hazır olduğunu göstərir: "Çünki biz elə bir möhkəm təməl yaratmışıq ki, istənilən böhranla əlaqədar öz düzgün addımlarımızı atırıq və neftin qiyməti hətta 35 dollar səviyyəsində olsa belə, Azərbaycan bütün sosial öhdəlikləri yerinə yetirəcək, ölkəmiz üçün lazım olan infrastruktur layihələrini icra edəcək, ölkəmizin hərbi potensialının möhkəmləndirilməsi üçün əlavə vəsaitin təşkil edilməsinə də çatacaqdır...".

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli fərmanının ləğv edilməsi barədə" fərman imzalayıb.

Sənədə əsasən, Azərbaycan Respublikasının İqtisadi Şurası yaradılıb. Şuranın qarşısında ölkədə makroiqtisadi sabitliyin qorunması, habelə sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə qlobal və milli iqtisadiyyatda baş verən proseslər öyrənilməsi mühüm vəzifə kimi qoyulub. Eyni zamanda, aparılan təhlillər əsasında cari və ortamüddətli dövr üçün iqtisadi siyasətin formalaşmasına, habelə ölkə iqtisadiyyatında yarana biləcək daxili və xarici təsirlərin qarşısının alınmasına yönələn qabaqlayıcı tədbirlərin görülməsi üçün həyata keçiriləcək islahatların, həmçinin iqtisadi siyasətin istiqamətinin müəyyənləşdirilməsinə dair təkliflər hazırlayaraq Azərbaycan Prezidentinə təqdim etmək tapşırılıb. Şuranın fəaliyyəti barədə 6 ayda bir dəfə olaraq dövlət başçısına məlumat verilməsi nəzərdə tutulub.

Fərmanda qeyd olunur ki, Azərbaycanda son 20 ildə aparılan genişmiqyaslı sosial-iqtisadi quruculuq prosesi, infrastrukturun müasirləşdirilməsi, insan kapitalının inkişafı hazırda əldə edilən sosial rifah göstəricilərinin başlıca hərəkətverici qüvvələri olub. Bu dövrdə ölkəmiz zəruri infrastruktur və institusional inkişaf göstəriciləri üzrə beynəlxalq reytinqlərdə xeyli irəliləyib, milli iqtisadiyyatın rəqabət qabiliyyəti xeyli yüksəlib. Ümumi daxili məhsulun həcmi 3 dəfədən çox artıb, vətəndaşların həyat səviyyəsi nəzərə çarpacaq dərəcədə yaxşılaşıb.

Lakin son illərdə dünya iqtisadiyyatında potensial iqtisadi artım templərinin aşağı düşməsi, əmtəə bazarlarında qiymət volatilliyinin xeyli yüksəlməsi, qlobal maliyyə sabitliyinin kövrəkliyinin artması, xüsusilə ilin əvvəllərindən başlanan koronavirus pandemiyası, həmçinin bununla əlaqədar əksər ölkələrdə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatı qarşısında da yeni strateji siyasət çağırışları yaradıb.

Əldə edilən sosial-iqtisadi rifah səviyyəsinin əlverişsiz qlobal mühitdə dayanıqlı saxlanılması və daha da yüksəldilməsi üçün milli iqtisadiyyatımızın beynəlxalq rəqabət qabiliyyəti gücləndirilməli, iqtisadiyyatın neft gəlirlərindən asılılığı minimuma endirilməli, ölkədə makroiqtisadi və maliyyə sabitliyi qorunmalıdır.

Sənəddə daha sonra vurğulanır ki, növbəti onillikdə Azərbaycabda sosial-iqtisadi rifahın yüksəldilməsi üçün iqtisadiyyatın ikiqat artımının təmin edilməsi qarşıda duran başlıca strateji çağırışlardan biridir. Xüsusilə postpandemiya dövründə iqtisadiyyatın illik artım tempinin yüksəldilməsi üçün onun yeni mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi, bu məqsədlə daha dayanıqlı, inklüziv iqtisadi artım mənbələrinin yaradılması zəruri şərtdir. Bu zaman özəl investisiyaların, o cümlədən birbaşa xarici investisiyaların cəlbinə, qeyri-neft ixracının genişləndirilməsinə əsaslanan milli inkişaf prioritetlərinin müəyyənləşdirilməsi, qlobal dəyər zəncirinə fəal qoşulma, investisiya mühitinin radikal yaxşılaşdırılması, müasir səhiyyə, təhsil siyasəti vasitəsilə insan kapitalının keyfiyyətinin daha da yüksəldilməsi, biznesin tələblərinə uyğunlaşdırılması, mülkiyyət hüquqlarının daha səmərəli qorunması və digər strateji vəzifələrin icrası prioritet məsələ kimi diqqət mərkəzində saxlanılır.

Milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavab vermək, yeni iqtisadi artım və inkişaf modelinə uğurlu keçidi gerçəkləşdirmək, bu zaman iqtisadi siyasətə önəm vermək və iqtisadi islahatla geniş meydan açmaq məqsədilə respublikada iqtisadi siyasətin yeni strateji idarəetmə çərçivəsinin yaradılması tələb olunur.

Fərmanda qeyd olunur ki, iqtisadi siyasətin yeni idarəetmə çərçivəsi postpandemiya dövründə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsini və milli iqtisadiyyatın müasirləşdirilməsini hədəfləyən strategiyanın formalaşdırılmasını, xüsusilə onun vacib hissəsi olan iqtisadi islahatlar proqramının hazırlanmasını və uğurla həyata keçirilməsini təmin etməlidir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli fərmanının ləğv edilməsi barədə" fərman imzalaması da onu göstərir ki, iqtisadi siyasətin daha səmərəli, daha yüksək səviyyədə idarə olunması zərurətinə bu gün daha çox ehtiyac duyulur. Bütün bunlara görə də İqtisadi Şura yaradılması mühüm önəm daşıyan bir addımdır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 11 sentyabr.- S.1.